İyunun 14-də ümumtəhsil məktəblərində “Son zəng” tədbiri qeyd olunur.

2024-2025-ci tədris ilində respublikanın ümumi təhsil müəssisələrinin XI sinifləri üzrə 113 000 nəfərə yaxın şagird məzun olur. Onlardan 54 000 nəfərə yaxını qız, 58 000 nəfərdən çoxu oğlandır.

Bu il həmçinin 158 539 nəfər IX sinfi, 134 600 nəfər isə birinci sinfi bitirir.

2024-2025-ci tədris ilində ümumi təhsil müəssisələrinin məktəbəhazırlıq qruplarında 90 732 uşaq təhsil alıb.

Qeyd edək ki, 2024-2025-ci tədris ilində ümumi təhsil müəssisələrində təhsilalanların sayı 1 704 065 nəfər təşkil edib.